# Bakıda Zəfər yürüşü və fləş-mobu keçirilib

8 Noyabr - Zəfər Günü münasibətilə Bakı şəhərində yürüş təşkil olunub. Zərər yürüşü Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin hərbi orkestrlərinin müşayiəti ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, "Azneft" dairəsindən "Ağ şəhər" bulvarınadək davam edən yürüşdə hərbi orkestrin ifasında vətənpərvərlik və qələbə ruhunda mahnı və marşlar səsləndirilib.






Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları 440 metr uzunluğunda Azərbaycan bayrağını yürüş marşrutu üzrə aparıblar. Yürüşü süvari dəstəsi müşayiət edib. "Ağ şəhər" bulvarınadək davam edən yürüş "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə təşkil olunan fləş-mobla başa çatıb. Fləş-mobda könüllü gənclərin iştirakı ilə Vətən müharibəsinin rəmzi olan "Dəmir yumruq" kompozisiyası yaradılıb.

Azərbaycan.- 2021.- 11 noyabr.- S.13.